# BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EMBAFİNANS" QAPALI SƏHMDAR CƏMİYYƏTİ

*Hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 2 000 (iki min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazların*

## EMİSSİYA PROSPEKTİ

**Qeyd:** Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Emissiya Prospektində olan məlumatların düzgünlüyünə görə məsuliyyət daşımır və nəzarət orqanı kimi onu qeydiyyata almaqla yerləşdirilən qiymətli kağızlara münasibətini ifadə etmir.

Emissiya Prospektinin tərtib edilməsində iştirak edən şəxslər və

Emissiya Prospektində təqdim edilmiş məlumatlara dair

# BƏYANAT

Biz, aşağıda imza edənlər,

1. Bu Emissiya Prospektini tərtib etməzdən öncə "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar ilə tanış olduğumuzu təsdiq edirik.
2. BOKT "EMBAFİNANS" QSC-nin hər birinin nominal dəyəri 1 000 (bir min) manat olan 2 000 (iki min) ədəd faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlarının Emissiya Prospektinə daxil edilən bütün məlumatların rəsmi sənədlərdə əks olunan həqiqi faktlar əsasında, heç bir təhrifə yol vermədən və hər hansı bir təhrifin qarşısının alınması üçün bütün zəruri tədbirlərin görüldüyünə təminat verir, həmçinin məsuliyyəti öz üzərimizə götürürük.

**BOKT "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyətinin Direktoru:**

**Hüseynov Nahid Şahin oğlu** ______________________

Tarix: 20 May 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI QAPALI SƏHMDAR CƏMİYYƏTİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI "EMBAFİNANS" CLOSED JOINT STOCK COMPANY AZERBAIJAN REPUBLIC

**BOKT "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyətinin Baş mühasibi:**

**Əliyev Şamxal Məzahir oğlu** ______________________

Tarix: 20 May 2025-ci il

# MÜNDARİCAT

XÜLASƏ....................................................................................................4

1. Xəbərdarlıq ....................................................................................4
2. Emitent haqqında məlumat ..............................................................4
3. Qiymətli kağızlar haqqında məlumat ................................................7
4. Risk faktorları ..................................................................................9
5. Təklif ..............................................................................................10

**6. İstiqrazların Emitenti barədə məlumat** .......................................12

6.1. Emitentin auditorları barədə məlumat ..........................................12

6.2. Seçilmiş maliyyə məlumatı ...........................................................13

6.3. Emitent barədə məlumat ..............................................................13

6.4. Emitentin biznesinin icmalı ..........................................................14

6.5. Digər təşkilatda iştərak ................................................................16

6.6. Tendensiyalar barədə məlumat ....................................................16

6.7. Gəlir proqnozu ............................................................................16

6.8. Emitentin idarəetmə və nəzarət orqanları .....................................16

6.9. İdarə Heyətinin işgüzar praktikası ................................................17

6.10. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər ..............18

6.11. Emitentin maliyyə məlumatları ...................................................19

6.12. Emitent haqqında əlavə məlumatlar ............................................24

**7. İstiqrazlar barədə məlumat**.......................................................25

7.1. Əsas məlumat ..............................................................................25

7.2. İstiqrazlar barədə məlumat ...........................................................26

7.3. Təklifin şərtləri ............................................................................29

7.4. Ticarətə buraxılma və onun tənzimlənməsi ...................................31

7.5. Kredit reytinqləri .........................................................................32

# Bakı-2025

# XÜLASƏ

## 1. Xəbərdarlıq

**1.1.** Bu sənəd Emissiya prospektinin giriş hissəsidir;

**1.2.** İstiqrazlara investisiya etmək barədə hər hansı bir qərar investorun Emissiya prospektini oxuduqdan sonra həyata keçirilməlidir;

**1.3.** Emissiya prospektində olan məlumatların yanlış, qeyri-dəqiq, ziddiyyətli olduğu və ya İstiqrazlara investisiya edib-etməmək barədə qərar verən investorlara kömək etmək məqsədilə əsas informasiyanın verilmədiyi zaman Emissiya prospektini hazırlamış şəxslər mülki məsuliyyət daşıyırlar.

## 2. Emitent haqqında məlumat

**2.1. Emitentin tam adı:** Bank Olmayan Kredit Təşkilatı "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyəti.

**2.2. Emitentin olduğu yer və təşkilati-hüquqi forması, emitentin qeydiyyatda olduğu ölkə:** Azərbaycan Respublikası, AZ 1138, Bakı şəhəri Yasamal rayonu, General Akim Abbasov küç.,73E, Qapalı Səhmdar Cəmiyyəti.

**2.3. Emitentə və onun əməliyyat apardığı sahələrə təsir edən məlum tendensiyaların təsviri:** "2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası" maliyyə inklüzivliyinin genişləndirilməsi, maliyyə xidmətlərinin əhatəliliyinin artırılması və maliyyə alətlərinin şaxələndirilməsi, sektorda səmərəliliyin yüksəldilməsi, korporativ idarəetmənin tətbiqi, habelə şəffaflıq və dayanıqlılığının gücləndirilməsi kimi strateji məqsədləri özündə əks etdirir. Strategiyaya uyğun olaraq bank sektorunda əlverişli və məsuliyyətli bank xidmətlərinin genişləndirilməsi vasitəsilə dayanıqlı inkişafın dəstəklənməsi nəzərdə tutulur. Bu məqsədlə bank sektoru üzrə bazarın genişləndirilməsi, bank olmayan kredit təşkilatlarını inkişaf etdirməklə onların iqtisadiyyatın maliyyələşməsində rolunun yüksəldilməsi, eləcə də nəzarət çərçivəsinin müasirləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bu çərçivədə, bank sektorunda biznes kreditlərinin həcminin ehtimal olunan potensialı 16.5 milyard manata çatdırılması, müvafiq korporativ idarəetmə, şəffaflıq və rəqabət qabiliyyətliliyinin inkişafı və risk əsaslı tənzimləmə və nəzarətin gücləndirilməsi hədəflənir. 2021-2023-ci illərdə Azərbaycan manatı sabitliyini qoruyaraq 1 ABŞ dolları 1.7 AZN səviyyəsində qalmışdı. 2025-ci il Yanvar ayında pul siyasətinə dair verilmiş qərarlara əsasən uçot dərəcəsi 7.25% səviyyəsində müəyyənləşdirilmişdir. 2025-ci il ərzində faiz dəhlizinin baxılması üçün növbəti yeddi iclas planlaşdırılıb. 2024-cü ildə Mərkəzi Bank özünün pul siyasətini inflyasiyanın hədəf intervalına qaytarılmasına və inflyasiya gözləntilərinin sabitləşdirilməsinə yönəltmişdir. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na uyğun olaraq pul siyasətinin hədəfi növbəti ildə də illik inflyasiyanı 4±2% intervalında saxlamaqdan ibarət olacaqdır.

**2.4. Emitentin digər hüquqi şəxslərdə mövqeyinin qısa təsviri. Emitentin qrupda olan şəxslərdən asılı olduğu təqdirdə bu barədə qeyd:** Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

**2.5. Gəlir proqnozunun mövcud olduğu zaman bu barədə qeyd:** Mövcud deyil.

**2.6. Audit edilmiş maliyyə məlumatlarına dair auditorun rəyinin qısa təsviri:** Kənar audit rəyinə əsasən, BOKT "Embafinans" QSC-nin maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından təşkilatın il sonuna maliyyə vəziyyətini və həmin il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

**2.7. Son üç maliyyə ili ərzində hər maliyyə ili üzrə seçilmiş maliyyə malumatı əsasında emitentin maliyyə durumunun əsas göstəriciləri. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir. Son dərc olunmuş audit edilmiş maliyyə hesabatlarından bəri emitentin fəaliyyətində dəyişikliyin olub-olmaması barədə məlumat. Aralıq dövrlər üçün seçilmiş maliyyə məlumatı verildiyi zaman əvvəlki maliyyə ilində eyni dövr barədə müqayisəli məlumatlar verilməlidir.**

| Göstəricilər | 2024 (audit olunmuş) | 2023 (audit olunmuş) | 2022 (audit olunmuş) |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 9 012 123 | 6 105 712 | 4 093 758 |
| **Xalis mənfəət (vergidən sonra)** | 7 207 747 | 5 325 304 | 3 170 441 |
| **Cəmi öhdəliklər** | 44 190 149 | 40 040 077 | 27 067 391 |
| **Cəmi kapital** | 25 801 736 | 18 593 989 | 16 268 685 |
| **Cəmi aktivlər** | 69 991 885 | 58 634 066 | 43 336 076 |
| **Kredit portfeli** | 61 997 393 | 51 379 588 | 37 889 662 |
| **Pul vəsaitləri** | 1 038 192 | 591 411 | 223 110 |

**2025-ci ilin maliyyə hesabatları auditor tərəfindən təstiq olunmadığı üçün, yalnız 4 aylıq maliyyə göstəriciləri müqayisəli verilir:**

| Göstəricilər | 2024 (ilk 4 ay) (audit olunmamış) | 2025 (ilk 4 ay) (audit olunmamış) |
|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 2 751 483 | 2 487 806 |
| **Xalis mənfəət (vergidən sonra)** | 2 201 186 | 1 990 245 |
| **Cəmi öhdəliklər** | 39 251 264 | 52 213 856 |
| **Cəmi kapital** | 20 639 347 | 24 828 555 |
| **Cəmi aktivlər** | 59 890 610 | 77 042 411 |
| **Kredit portfeli** | 56 036 661 | 71 958 045 |
| **Pul vəsaitləri** | 1 152 293 | 2 379 089 |

**2.8. Emitentin ödəmə qabiliyyətinə təsir edən ən son hadisələr:** BOKT "Embafinans" QSC-nin ödəmə qabiliyyətinə təsir edən əsas faktor olan kredit portfelinin keyfiyyəti qənaətbəxşdir. Aşağıdakı cədvəldə 30 gündən çox gecikmiş portfelin kredit portfelinə nisbəti göstəricisinin illər üzrə dinamikası göstərilmişdir:

| Göstəricilər | 31.12.2024 | 31.12.2023 | 31.12.2022 |
|---|---|---|---|
| **PAR>30 (məbləğ)** | 4 265 159 | 3 371 995 | 2 757 526 |
| **PAR>30/Portfel(%)** | 6,1% | 5.6% | 6.0% |

BOKT "Embafinans" QSC, ödəmə qabiliyyətinə təsir edən maliyyələşmə mənbələrini davamlı olaraq diversifikasiya edir. Belə ki, təşkilatın əsas maliyyələşmə mənbələri kapital, bank öhdəlikləri, istiqraz portfelidir.

**2.9.Emitentin əsas fəaliyyətlərinin təsviri:** BOKT "EMBAFİNANS" QSC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.

Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "EMBAFİNANS" QSC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;
- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

**2.10. Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyətləri:** Müəssisənin nizamnamə kapitalı 86 (səksən altı) % və 14 (on dörd) % payla 2 şəxsə məxsusdur.

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | Azərbaycan Respublikası | 8 600 | 86 % |
| Polyakova Tamara Başirovna | Rusiya Federasiyası | 1 400 | 14 % |

Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq növbəti və növbədənkənar keçirilməklə Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60% (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Ümumi Yığıncaq, iştirak edən səhmdar sadə səs çoxluğu ilə Emitentin fəaliyyətinə dair qanunvericiliyə zidd olmayan istənilən qərarı qəbul edə bilər. Emitentin idarə olunması və onun fəaliyyətinə nəzarət, ümumi yığıncaqlararası dövrdə, İştirakçıların Ümumi Yığıncağı tərəfindən formalaşdırılmış Müşahidə Şurası tərəfindən həyata keçirilir. Müşahidə şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

Mühüm iştirak payının sahibi tərəfindən Emitentə nəzarət Emitentin nizamnaməsinə və AR Mülki Məcəlləsinə uyğun olaraq həyata keçirilir.

## 3. Qiymətli kağızlar haqqında məlumat

**3.1. İstiqrazların növü:** faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqrazlar;
**3.2. İstiqrazların valyutası:** Manat;
**3.3. Tədavül müddəti:** 12 ay;
**3.4. İstiqrazlarla təsbit olunan məhdudiyyətlərin təsviri:** Mövcud deyil.
**3.5. İstiqrazlarla təsbit olunmuş hüquqların təsviri:**

- İstiqrazların tədavül müddəti bitdiyi vaxtda İstiqrazın nominal dəyərini emitentdən almaq;
- İstiqrazın nominal dəyərindən illik 13 (on üç) faiz olmaqla, istiqrazların tədavül müddəti ərzində faiz gəliri almaq;
- Emintentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərər qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək

hesablanmış, lakin, ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

**3.6. İstiqrazların faiz dərəcəsi. İstiqrazların faizlərinin və dəyərinin ödənilmə tarixi və müddəti:** İstiqrazlar üzrə illik faiz dərəcəsi 13 (on üç) % təşkil edir. İstiqrazlar üzrə hesablanmış faizlər, buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 12 (on iki) ay müddətində hər 3 (üç) təqvim ayından bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) ödənilir. İstiqrazların nominal dəyəri tədavül müddətinin sonunda, sonuncu kupon ödənişi ilə birlikdə ödəniləcəkdir.

**3.7. Təmin edilmiş istiqrazlar üzrə təminatın təsviri və şərtləri:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.8. İstiqrazların geri satın alınma şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmur.

**3.9. Gəlirin qısa formada hesablama metodunu göstərməklə gəlir göstəricisi:** İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

TF = (N*D*G/360)/100

Burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri 1 000 (bir min) manat;

D – İstiqrazların illik gəlirlik dərəcəsi 13 (on üç);

G –İstiqrazların ödəniş dövrünün müddəti hər 3 ayda bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə)

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 32.50 (otuz iki tam onda beş) manat təşkil edir.

**3.10. İstirazların mülkiyyətçisinin təmsilçisinin adı:** Mövcud deyil.

**3.11. Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** İstiqrazlar təmin edilməmiş formada buraxılır.

**3.12. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub-tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar barədə məlumat və ticarətə buraxılmanın şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə ilkin yerləşdirilməsi Emissiya prospekti dövlət qeydiyyatına alındıqdan sonra "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsi ilə həyata keçiriləcəkdir. İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi və listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi

emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "ABB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.embafinans.az) açıqlanır.

BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;

• korporativ qiymətli kağızlar bazarı;

• törəmə maliyyə alətləri bazarının Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında" qiymətli kağızların listinqə daxil olması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

# 4. Risk faktorları

**4.1. Təklif olunan istiqrazlarla əlaqəli bazar risklərini qiymətləndirmək üçün zəruri olan risk faktorları:**

- Faiz riski - faiz dərəcələrinin mənfi dəyişməsindən yaranan itki riski;
- Hesablaşma və kontragent riski- hesablaşmanın vaxtından gec aparılması və aparılmasından əvvəl kontragentin öhdəliklərini icra edə bilməməsi səbəbindən meydana gələn itki riskləri;
- İnflyasiya riski - pulun alıcılıq qabiliyyətinin aşağı düşməsi ilə bağlı risk;
- Əməliyyat riski - daxili proseslər, sistem pozğunluqları, insan faktoru və xarici hadisələrdən meydana gələn itki riskləri;
- Kredit riski - borcalanın öhdəliklərini yerinə yetirə bilməməsindən meydana gələn itki riskləri;
- Likvidlik riski - müəyyən anda aktivlərin satışı və ya alışı ilə bağlı çətinliklərin yaranması mümkünlüyü;
- Təbii risk - insan fəaliyyətindən asılı olmayan risk (təbii fəlakət, fors-major və s.);
- Valyuta riski - valyuta kurslarının əlverişsiz şəkildə dəyişməsindən yaranan itki riski.

**4.2. İstiqraz emissiyası zamanı emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edə bilən risk faktorları:**

- Kredit riski - Borcalan və ya qarşı tərəfin BOKT "EMBAFİNANS" QSC qarşısında maliyyə və ya müqavilə öhdəliklərini yerinə yetirməməsi nəticəsində yaranan itki riski. Birbaşa kredit əməliyyatları kredit riskinin ən bariz mənbəyidir.
- Maliyyələşdirmə/Likvidlik riski - Öhdəlikləri vaxtı çatdıqda yerinə yetirmək qabiliyyəti və
- Rəhbərliyin yaranan biznes ehtiyacları üçün şaxələndirilmiş və əlverişli maliyyə mənbələrini müəyyən etmək qabiliyyəti ilə bağlı risk.
- Bazar riski - Bazar qiymətlərinin dəyişməsi nəticəsində yaranan risk. Bazar riski valyuta məzənnələrində, faiz dərəcələrində, kredit spredlərində və kross-valyuta əsaslı spredlərdə mənfi dəyişikliklər nəticəsində yaranan qiymətləndirmə itkisi və ya gözlənilən mənfəətin azalması riskidir.
- Bazar riski baxımından BOKT "EMBAFİNANS" QSC ilk növbədə aşağıdakılara məruz qalır:
- Faiz dərəcəsi riski, faiz dərəcələrində mənfi dəyişikliklərə məruz qalmağa aiddir və ilk növbədə dərəcənin dəyişmə vaxtı ilə pul vəsaitlərinin hərəkəti vaxtı arasındakı fərqlərdən (yenidənqiymətləndirmə riski), o cümlədən qiymət əsaslarındakı fərqlərdən, faizlə əlaqəli opsionlardan və ödəmə müddətləri arasında dəyişən dərəcə münasibətlərindən yaranır; və
- Xarici valyuta riski, bu, spot və forvard qiymətlərinin dəyişməsi və valyuta məzənnələrinin dəyişkənliyi nəticəsində itkilərə aiddir.
- Əməliyyat riski - qeyri-adekvat və ya xətalı daxili proseslər, sistemlər, insan faktoru və ya xarici hadisələr nəticəsində itki riski kimi müəyyən edilir.

## 5. Təklif

**5.1. Təklifin səbəbi mənfəətin əldə edilməsi və ya bəzi risklərin sığortalanmasından fərqli olduğu təqdirdə emissiyanın səbəbi:** Emissiyadan əldə ediləcək vəsait şirkətin gələcək fəaliyyətinin dəstəklənməsində, o cümlədən şirkətin kredit portfelinin dinamik inkişafında istifadə ediləcəkdir.

**5.2. Təklifin şərtlərinin təsviri:** İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "ABB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.embafinans.az) açıqlanır.

**5.3. Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toqquşması, barədə ətraflı məlumat:** Emissiyada iştirak edən şəxslər arasında maraqlar münaqişəsi mövcud deyil. Emissiyada emitentə aidiyyəti olan və digər əlaqəli şəxslər iştirak etmir.

**5.3.1. "Bakı Fond Birjası" QSC.** Emissiya prosesində iştirak edən "Bakı Fond Birjası" QSC yeni emissiya ediləcək istiqrazların listinqə daxil edilməsi, ilkin yerləşdirilməsi, həmçinin təkrar

bazarlarda alğı-satqısı üçün mütəşəkkil ticarəti təşkil edir. İstiqrazların emissiyası prosesində "Bakı Fond Birjası" QSC-nin vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların listinqə daxil edilməsi;
- İstiqrazların hərracının təşkil edilməsi;
- İstiqrazların təkrar bazar əməliyyatların aparılması üçün müvafiq ticarət sistemin təmin edilməsi;

**5.3.2. Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi qeyri-kommersiya hüquqi şəxs formasında təsis edilmiş Azərbaycan Respublikası ərazisində depozitar sistemini idarə edən mərkəzi depozitardır. İstiqrazların emissiyası prosesində Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi vəzifələri aşağıdakı kimidir:

- İstiqrazların saxlanması və uçotunun aparılması;
- İstiqraz mülkiyyətçilərin reyestrinin aparılması;
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə ödənişlərin (faiz ödənişlərinin və tədavül müddətinin sonunda istiqrazın nominal dəyərinin) həyata keçirilməsi xidmətinin göstərilməsi.

**5.3.3. Anderrayter** - "ABB-İnvest İnvestisiya Şirkəti" QSC müvafiq lisenziya əsasında investisiya şirkəti fəaliyyətini həyata keçirir. İstiqrazların buraxılışı və yerləşdirilməsi prosesində anderrayterlərin vəzifələri aşağıdakılardır:

- İstiqrazların yerləşdirilməsi üzrə hərrac zamanı toplanılan alış sifarişlərinə qarşı Emitentin satış sifarişini daxil etmək;
- Sifarişlərin uzlaşdırılması nəticəsində əmələ gələn alğı-satqı əqdləri barədə hesabat tərtib edərək Emitentə təqdim etmək.
- Yerləşdirmə nəticəsində toplanmış pul vəsaitlərini Emitentin bank hesabına köçürülməsini təmin etmək.

**5.4. İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği.**

**5.4.1. Vergilər.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**5.4.2. Xərclər.** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında.

# 6. İstiqrazların emitenti barədə tələb olunan məlumatlar

## 6.1. Emitentin auditorları barədə məlumat

**6.1.1. Son üç maliyyə ili ərzində emitentin auditorlarının adı, ünvanları və hər hansı təşkilatda üzvlüyü barədə məlumat:**

| Maliyyə ili | Auditorun adı | Ünvanı | Audit təşkilatında üzvlüyü barədə məlumat |
|---|---|---|---|
| **2022** | RSM Azerbaijan MMC | Bakı şəh. Xocalı küç. 37, Dəmirçi Plaza Biznes Mərkəzi | Mövcud deyil |
| **2023** | Baker Tilly Audit Azərbaycan QSC | Bakı şəh. Nəsimi Rayonu, Cəlil Məmmədquluzadə, ev 102a | Mövcud deyil |
| **2024** | Baker Tilly Audit Azərbaycan QSC | Bakı şəh. Nəsimi Rayonu, Cəlil Məmmədquluzadə, ev 102a | Mövcud deyil |

**6.1.2. Son üç maliyyə ili ərzində auditorların əvəzlənməsi və ya dəyişdirilməsi barədə səbəbləri göstərilməklə məlumat:** Praysvoterhaus Kupers Audit ardıcıl 6 dövr audit xidməti göstərdiyi üçün əvəzlənmişdir. 2022-ci maliyyə ili üzrə audit hesabatının tərtibi RSM Azerbaijan MMC şirkətinə həvalə edilmişdir. 2023-cü ildən isə yeni audit şirkəti ilə, Baker Tilly Audit Azərbaycan QSC- ilə 2 (iki) illik müqavilə bağlanmışdır.

## 6.2. Seçilmiş maliyyə məlumatı

**(Azərbaycan Manatı ilə)**

| Göstəricilər | 2024 | 2023 | 2022 |
|---|---|---|---|
| **Mənfəət/Zərər (vergidən əvvəl)** | 9 012 123 | 6 105 712 | 4 093 758 |
| **Mənfəət/Zərər (vergidən sonra)** | 7 207 747 | 5 325 304 | 3 170 441 |
| **Cəmi öhdəliklər** | 44 190 149 | 40 040 077 | 27 067 391 |
| **Cəmi kapital** | 25 801 736 | 18 593 989 | 16 268 685 |
| **Cəmi aktivlər** | 69 991 885 | 58 634 066 | 43 336 076 |
| **Kredit portfeli** | 61 997 393 | 51 379 588 | 37 889 662 |
| **Pul vəsaitləri** | 1 038 192 | 591 411 | 223 110 |

**(Azərbaycan Manatı ilə)**

| Son üç maliyyə ili | 2024 | 2023 | 2022 |
|---|---|---|---|
| **Xalis əməliyyat gəliri** | 15 625 521 | 11 294 541 | 7 400 422 |
| **İnzibati və sair əməliyyat xərcləri** | 6 613 398 | 5 188 829 | 3 306 664 |
| **Mənfəət /Zərər (vergidən əvvəl)** | 9 012 123 | 6 105 712 | 4 093 758 |
| **Mənfəət /Zərər (vergidən sonra)** | 7 207 747 | 5 325 304 | 3 170 441 |

## 6.3. Emitent barədə məlumat

**6.3.1. Emitentin tam adı, təşkilati-hüquqi forması:** Bank Olmayan Kredit Təşkilatı "EMBAFİNANS" Qapalı Səhmdar Cəmiyyəti

**6.3.2. Emitentin dövlət qeydiyyatının rekvizitləri:** 25.06.2012-ci il tarixində dövlət qeydiyyatına alınmışdır, VÖEN: 1302932691

**6.3.3. Emitentin təşkilati-hüquqi forması dəyişdirildikdə, onun bütün əvvəlki adları, təşkilati-hüquqi formaları, o cümlədən dəyişikliklərin dövlət qeydiyyatı tarixi:** Emitentin təşkilati-hüquqi formasında dəyişiklik baş vermişdir. Belə ki, emitent 10.12.2019 tarixli dövlət qeydiyyatı ilə Məhdud Məsuliyyətli Cəmiyyət formasından Qapalı Səhmdar Cəmiyyət təşkilati-hüquqi formasına keçmişdir.

**6.3.4. Emitentin olduğu yer, poçt ünvanı, elektron poçt ünvanı, emitentin internet səhifəsinin ünvanı və əlaqə telefonları:**
Hüquqi və faktiki ünvanı: Az 1138, Bakı şəhəri Yasamal rayonu, General Akim Abbasov küç.,73E
Telefon: (+994 12) 311 15 42
İnternet səhifəsi: www.embafinans.az
Elektron poçt ünvanı: info@embafinans.az

**6.3.5. Maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən əsas investisiyaların təsviri (məbləği göstərilməklə):** Mövcud deyil

**6.3.6. İdarəetmə orqanlarının emitentin gələcək investisiyaları ilə bağlı öhdəlikləri və həmin öhdəlikləri yerinə yetirmək üçün lazım olan maliyyə vəsaiti mənbələri ilə bağlı məlumat:** Mövcud deyil.

**6.3.7. Emitentin qiymətli kağızlarının ticarətə buraxıldığı tənzimlənən bazarlar barədə məlumat:** Emissiya ediləcək istiqrazlar "Bakı Fond Birjası" (BFB) Qapalı Səhmdar Cəmiyyətində yerləşdiriləcəkdir. BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarının Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında" qiymətli kağızların listinqə daxil olması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)
Elektron poçt ünvanı: info@bse.az
İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az
Tel: (+99412) 539 72 49
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

## 6.4. Emitentin biznesinin icmalı

**6.4.1. Emitentin satılmış məhsullarının və ya göstərilmiş xidmətlərinin əsas kateqoriyalarını göstərərək emitentin əsas fəaliyyətlərinin təsviri:** BOKT "EMBAFİNANS" QSC Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qısa və uzun müddətli, təminatlı və təminatsız kreditlər verə bilər.
Kreditlərin verilməsi üçün müvafiq lisenziyaya malik BOKT "EMBAFİNANS" QSC, həmçinin aşağıdakı fəaliyyət növlərini də həyata keçirə bilər:

- Borc öhdəliklərinin alqı-satqısı (faktorinq, forfeytinq);
- Lizinq;
- Veksellərin uçotu;
- Qarantiyanın verilməsi;
- Sığorta agenti xidmətlərinin göstərilməsi;

- Borcalanlara, o cümlədən, birgə borcalan qruplarına maliyyə, texniki, idarəetmə və maliyyə məsələləri üzrə məsləhət xidmətinin göstərilməsi.

BOKT "Embafinans" QSC-nin əsas məhsul kateqoriyaları – istehlak məhsullarının kreditləşdirilməsi və mikro biznes kreditləridir. Son 3 il üzrə bu məhsullar üzrə kredit portfeli, gəlirlik və mənfəətlik aşağıdakı kimi olmuşdur:

**(Azərbaycan Manatı ilə)**

| | 2024 | 2023 | 2022 |
|---|---|---|---|
| Kredit portfeli | 61 997 393 | 51 379 588 | 37 889 662 |
| Gəlirlər | 20 704 350 | 15 313 123 | 10 596 424 |
| Xalis mənfəət | 7 207 747 | 5 325 304 | 3 170 441 |

**6.4.2. Təqdim olunmuş yeni məhsullar və xidmətlər barədə məlumat, onların inkişaf statusu:**

Təqdim olunmayıb.

**6.4.3. Emitentin rəqabət apardığı əsas bazarların təsviri:**

2024-cü il üzrə BOKT-ların aktivləri 993,3 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 31 % çoxdur. Bunun 716,9 milyon manatı müştərilərə verilmiş xalis kreditlərdir. Son 1 ildə sektorun kredit portfeli 28,4 % böyüyüb. BOKT-ların öhdəlikləri 21,1 % artaraq 536,9 milyon manata, balans kapitalı isə 44,8 % artaraq 456,4 milyon manata çatıb. 2024-cü ildə BOKT "Embafinans" QSC aktivləri 76 milyon manat olub ki, bu da 1 il əvvələ nisbətən 17 % çoxdur və buda bazar göstəricilərinin 8% həcmini təşkil edir. Bunun 69,9 milyon manatı müştərilərə verilmiş xalis kreditlərdir. Son 1 ildə kredit portfeli 16 % böyüyüb. Bazarın kredit portfelini 9,8%-ni təşkil edir. BOKT "Embafinans" QSC-nin öhdəlikləri 5 % artaraq 50,2 milyon manata(bazara nisbəti 9%), kapitalı isə 17 % artaraq 25,8 milyon manata çatıb(bazar nisbəti 6%).

(qeyd: məlumat Mərkəzi Bankın Maliyyə sektorunun statistikası ilə bağlı sayt məlumatlarından götürülmüşdür):

| | 31.12.2022 | 31.12.2023 | 31.12.2024 |
|---|---|---|---|
| BOKT sektorunun kredit portfeli | 440 400 000 | 600 800 000 | 808 300 000 |

**6.4.4. Emitentin rəqabət mövqeyinə dair bəyanatı olduğu halda onun əsaslandırılması:**

BOKT "Embafinans" QSC, riteyl və mikro biznes kredit bazarında lider mövqelərdən birini tutur. Belə ki, təşkilat fəaliyyətə başladığı 2012-ci ildən 31.12.2024-cü il tarixinədək 618 mln. manatdan çox kredit vermişdir ki, verilmiş kreditin cəmi 0.5% hissəsi gecikmiş kredit statusu almışdır.

| | 31.12.2022 | 31.12.2023 | 31.12.2024 |
|---|---|---|---|
| BOKT sektorunun kredit portfeli | 440 400 000 | 600 800 000 | 808 300 000 |
| BOKT "Embafinans" QSC-nin kredit portfeli | 45 759 232 | 51 379 588 | 61 997 393 |

| | | | |
|---|---|---|---|
| "Embafinans" kredit portfelinin cəmi BOKT portfelində payı | 10% | 8% | 8% |

Qeyd: BOKT sektorunun kredit portfeli barədə məlumat Mərkəzi Bankın Maliyyə sektorunun statistikası ilə bağlı sayt məlumatlarından götürülmüşdür.
BOKT "Embafinans" QSC, biznesdə keyfiyyət və şəffaflıq prinsiplərini qoruyur. BOKT "Embafinans" QSC-yə 05.02.2018-ci il tarixindən "Şəffaf vergi ödəyicisi" statusu verilmişdir.

## 6.5. Digər təşkilatlarda iştirak

6.5.1. **Emitentin digər hüquqi şəxslərdə iştirakının qısa təsviri:** BOKT "Embafinans" QSC-nin heç bir hüquqi şəxsdə iştirakı mövcud deyildir.

6.5.2. **Emitentin daxil olduğu qruplardan asılılığı və bu asılılığın səbəbi:** Emitent heç bir qrupa daxil deyil. Fəaliyyətini müstəqil şəkildə həyata keçirir.

## 6.6. Tendensiyalar barədə məlumat

6.6.1. **Audit edilmiş maliyyə hesabatlarının son dərc olunma tarixindən etibarən emitentin Emissiya prospektində mənfi dəyişiklik olmadığı barədə məlumat:** Göstərilən tarixdən etibarən müəssisənin fəaliyyətinə mənfi təsir edəcək hər hansı bir hal baş verməmişdir.

6.6.2. **Emitentin fəaliyyətinə cari maliyyə ili dövründə təsir etmə ehtimalı olan məlum tendensiyalar, qeyri-müəyyənliklər, öhdəliklər və ya hadisələr barədə məlumat:** Emitent ticari ildə mənfəətliyini artırmaq üçün və cəmləşmə risklərini minimumlaşdırmaq məqsədilə yeni partnyorlarla əməkdaşlıq edir. Ölkədə pul-kredit siyasətinin sabitləşməsi kredit təşkilatlarının səmərəli olmasına şərait yaradıb və hal-hazırda bazarda qeyri-müəyyənlik mövcud deyil. Emitentin öhdəlikləri cari fəaliyyət əsasında yaranan öhdəliklərdir və onlar vaxtında icra edilməkdədir.

## 6.7. Gəlir proqnozu

- Mövcud deyil

## 6.8 Emitentin idarəetmə və nəzarət orqanları

6.8.1. **Emitentin idarəetmə və nəzarət orqanlarının hər bir üzvü barədə aşağıdakı məlumatlar:**

**Emitentin Müşahidə Şurası barədə məlumat:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|

| | | |
|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | Müşahidə Şurasının sədri | Şuranın işini təşkil etmək, iclaslarını çağırmaq və iclaslarda sədrlik etmək; Şuranın rüblük planlarını, iclas protokollarını və qəbul olunmuş qərarlarını imzalamaq və s. |
| Baltacı Mustafa Kemal oğlu | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |
| Muxtarova Mələk Elşad qızı | Müşahidə Şurasının üzvü | Şuranın iclaslarında təşkilatın fəaliyyəti ilə bağlı məsələləri müzakirə etmək və əhəmiyyətli qərarların qəbul olunmasında iştirak etmək; İdarə Heyəti və Komitələrdən hesabatları almaqla nəzarət funksiyası və s. |

**Emitentin təkbaşına icra orqanı olan direktor məlumatı:**

| Adı, soyadı, atasının adı | Vəzifəsi | Funksiyaları |
|---|---|---|
| Hüseynov Nahid Şahin oğlu | Direktor | Təşkilatın qanuni təmsilçisi funksiyasını icra edir; Təşkilatın adından qanunla qadağan edilməyən əqd və sazişlər bağlayır, sərəncamlar verir; Təşkilatın fəaliyyətinə cari rəhbərlik edir; İşçilərin işə qəbul və işdən azad olunması ilə bağlı qərarlar qəbul edir və s. |

**6.8.2. Xidməti vəzifələri ilə şəxsi maraqları arasında ziddiyyət yarana biləcəyi hallarda maraqların toqquşması barədə hesabat:** Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-10.5-ci maddəsinə əsasən cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə Mülki Məcəllənin 49-1.6- cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı təşkilatın Müşahidə Şurasına, o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər.

## 6.9. İdarə heyətinin işgüzar praktikası

**6.9.1. Audit və mükafatlandırma (olduqda) komitələrinin üzvlərinin adları və komitələrin əsasnamələri ilə onlara verilmiş səlahiyyət əsasında gördükləri işlərin icmalı:**

**Emitentin Audit Komitəsi barədə məlumat:**

| Komitələr | Üzvləri | Funksiyaları |
|---|---|---|
| Audit Komitəsi | Kərimli Xalid Sabir oğlu<br>Mikayılov Malik Ağaməmməd oğlu<br>Məmmədov Eldar Camaləddin oğlu | Audit Komitəsi aidiyyatı hesabatları almaqla işlərə nəzarət edir.<br>Təşkilatın fəaliyyət sahəsini tənzimləyən normativ hüquqi akt və ya aktları, audit siyasətini və strategiyasını müəyyən edir. |

**6.9.2. Emitentin qeydiyyatda olduğu ölkədə mövcud olan korporativ idarəetmə standartlarına uyğun olub-olmadığı barədə hesabat. Uyğun olmadığı halda bu barədə hesabat:** Emitentin idarəetmə forması Mülki Məcəllə və ona müvafiq hazırlanmış nizamnaməsi əsasında müəyyən edilir və tənzimlənir.

## 6.10. Emitentin nizamnamə kapitalında mühüm iştirak payına sahib olan şəxslər

**6.10.1. Emitentin nizamnamə kapitalında 10 faizdən artıq iştirak payına sahib olan şəxslərin adları, vətəndaşlığı və onlara məxsus payların sayı və nizamnamə kapitalında olan faiz nisbəti:**

| Adı | Vətəndaşlığı | Səhmlərin sayı | Nizamnamə kapitalında faiz nisbəti |
|---|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | Azərbaycan Respublikası | 8 600 | 86 % |
| Polyakova Tamara Başirovna | Rusiya Federasiyası | 1 400 | 14 |

**6.10.2Mühüm iştirak payına sahib olan şəxslər tərəfindən emitentə nəzarətin xüsusiyyəti və bu nəzarətin sui-istifadə edilmədiyinə əmin olmaq üçün lazımi tədbirlərin təsviri:** Cəmiyyətin ali idarəetmə orqanı onun səhmdarlarının Ümumi Yığıncağıdır. Ümumi Yığıncaq növbəti və növbədənkənar keçirilməklə Emitentin fəaliyyəti ilə bağlı istənilən məsələni müzakirə edə bilər. Ümumi Yığıncaq nizamnamə kapitalında ən azı 60% (altmış faiz) paya malik olan səhmdarlar iştirak etdikdə səlahiyyətli sayılır. Ümumi Yığıncaq, iştirak edən səhmdar sadə səs çoxluğu ilə Emitentin fəaliyyətinə dair qanunvericiliyə zidd olmayan istənilən qərarı qəbul edə bilər. Ümumi yığıncaqlararası dövrdə Emitentin idarə olunmasına və işinə nəzarəti üzvləri,

səhmdarların Ümumi Yığıncağı tərəfindən təyin edilmiş Müşahidə Şurası həyata keçirir. Müşahidə şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir. Cəmiyyətin korporativ idarəetmə və daxili nəzarət mexanizmləri qurulmuşdur. Cəmiyyətin fəaliyyəti xüsusi icazə tələb edən (lisenziya) fəaliyyət olduğundanbirbaşa Azərbaycan Respublikası Mərkəzi Bankının tənzimləmə obyekti olmaqla bilavasitə onun nəzarətindədir.. Cəmiyyət fəaliyyəti qüvvədə olan qanunvericiliyin tələblərinə uyğun, prosedurqaydalar toplusu ilə tənzimlənən müvafiq struktur bölmə və şöbələrdən ibarət olmaqla korporativ idarəetməyə malikdir. Nizamnaməyə və qanunvericliyin tələblərinə uyğun olaraq Cəmiyyətdə növbəti və növbədən kənar auditi davamlı olaraq həyata keçirilməsi bu sahədə kifayət qədər təcrübəyə malik və qabaqcıl imkanları olan audit şirkətləri tərəfindən aparılır. . Cəmiyyətin səhmdarlarının ondan birbaşa iqtisadi marağı əldə olunmuş mənfəətin dividend şəklində götürülməsi və ya onun inkişafına yönləndirilməklə potensialının və dəyərinin artırılmasıdır. Cəmiyyətdə istiqrazlar üzrə öhdəliklərin istənilən halda səhmdarların tələblərindən öncə ödənilməsi prinsipi rəhbər tutulur. İstiqraz sahibləri Cəmiyyət tərəfindən təqdim edilən altı aylıq və illik maliyyə hesabatları vasitəsilə şirkətin mənfəətinin artıb azalmasına, dividend ödənişlərinə və nizamnamə kapitalının artıb azaldılmasına, habelə digər maliyyə tənzimləmələrinə nəzarət etməklə sui-istifadə hallarına yol verilməməsinə əmin ola bilər, habelə belə hallara yol verildiyi halda onlarının qarşısının alınması üçün müvafiqtədbirləri vaxtında icra edə bilərlər.

**6.10.3 Mühüm iştirak payına sahib olan şəxslərin dəyişməsinə gətirilə bilən və emitentə məlum olan əməliyyatlar barədə məlumat:** Mövcud deyil.

## 6.11 Emitentin maliyyə məlumatları

### 6.11.1. Emitentin başa çatmış son iki maliyyə ili üzrə audit edilmiş maliyyə hesabatları:

| ***BALANS**- Azərbaycan manatı ilə* | **31 dekabr 2023** | **31 dekabr 2024** |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 591,411 | 1,038,192 |
| Müştərilərə verilmiş kreditlər | 51,379,588 | 61,997,393 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 3,942,868 | 3,724,317 |
| İstifadə hüquqlu aktivlər | 628,856 | 611,832 |
| Sair aktivlər | 2,091,343 | 2,620,151 |
| **CƏMİ AKTİVLƏR** | **58,634,066** | **69,991,885** |
| **ÖHDƏLİKLƏR** | | |
| Borc alınmış vəsaitlər | 32,958,730 | 38,322,553 |

| | | |
|---|---|---|
| Buraxılmış borc qiymətli kağızlar | 5,107,972 | 2,524,014 |
| İcarə öhdəlikləri | 686,419 | 693,792 |
| Tərəfdaşlara ödənilməli vəsaitlər | 586,867 | 631,946 |
| Cari mənfəət vergisi öhdəliyi | 263,816 | 1,152,181 |
| Təxirə salınmış mənfəət vergisi öhdəliyi | 135,678 | 303,437 |
| Sair öhdəliklər | 300,595 | 562,226 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **40,040,077** | **44,190,149** |
| **KAPİTAL** | | |
| Nizamnamə kapitalı | 10,000,000 | 10,000,000 |
| Bölüşdürülməmiş mənfəət | 8,593,989 | 15,801,736 |
| **CƏMİ KAPİTAL** | **18,593,989** | **25,801,736** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | **58,634,066** | **69,991,885** |

| ***Mənfəət-Zərər hesabatı****- Azərbaycan manatı ilə* | **2023** | **2024** |
|---|---|---|
| Effektiv faiz metodu ilə hesablanmış faiz gəliri | 15,313,123 | 20,704,350 |
| Faiz və oxşar xərclər | (3,712,097) | (4,054,693) |
| **Xalis faiz marjası və oxşar gəlirlər** | **11,601,026** | **16,649,657** |
| Kredit zərərləri üzrə ehtiyat | (306,485) | (1,024,136) |
| **Kredit zərərləri üzrə ehtiyatın yaradılmasından sonra xalis faiz marjası və oxşar gəlirlər** | **10,561,523** | **15,625,521** |
| Haqq və komissiya gəlirləri | 131,831 | 231,389 |
| Haqq və komissiya xərcləri | (864,976) | (1,158,880) |
| Əsas vəsaitlərin silinməsindən gəlir | | |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə zərər çıxılmaqla gəlir | 127 | (3,652) |
| İnzibati və sair əməliyyat xərcləri | (4,455,811) | (5,682,255) |
| **Vergidən əvvəlki mənfəət** | **6,105,712** | **9,012,123** |
| Mənfəət vergisi xərci | (780,408) | (1,804,376) |
| **İl üzrə mənfəət** | **5,325,304** | **7,207,747** |

| | | |
|---|---|---|
| **İl üzrə cəmi məcmu gəlir** | **5,325,304** | **7,207,747,** |

| *Kapitalda dəyişikliklər- Azərb. manatı ilə* | Nizamnamə | Bölüşdürülməmiş | Cəmi |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il tarixinə qalıq** | **10,000,000** | **6,268,685** | **16,268,685** |
| İl üzrə mənfəət | - | 5,325,304 | 5,325,304 |
| **2023-ci il üzrə cəmi məcmu gəlir** | **-** | **5,325,304** | **5,325,304** |
| Ödənilmiş dividendlər | - | (3,000,000) | (3,000,000) |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **10,000,000** | **8,593,989** | **18,593,989** |
| İl üzrə mənfəət | - | 7,207,747 | 7,207,747 |
| **2024-cü il üzrə cəmi məcmu gəlir** | **-** | **7,207,747** | **7,207,747** |
| Ödənilmiş dividendlər | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **10,000,000** | **15,801,736** | **25,801,736** |

| *Pul vəsaitlərinin hərəkəti- Azərbaycan manatı ilə* | 2023 | 2024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Alınmış faizlər | 16,086,685 | 19,743,765 |
| Ödənilmiş faizlər | (3,681,559) | (4,113,164) |
| Alınmış haqq və komissiyalar | 131,831 | 231,389 |
| Ödənilmiş haqq və komissiyalar | (864,976) | (1,158,880) |
| Ödənilmiş əməliyyat xərcləri | (3,991,957) | (5,285,441) |
| Ödənilmiş mənfəət vergisi | (945,000) | (585,000) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə daxil olan pul vəsaitlərinin hərəkəti** | **6,735,024** | **8,832,669** |

| | | |
|---|---|---|
| - müştərilərə verilmiş kreditlərdə | (14,569,973) | (10,664,656) |
| - sair aktivlərdə | (1,136,345) | (497,101) |
| - tərəfdaşlara ödənilməli vəsaitlərdə | 191,329 | 45,079 |
| **Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | **(8,779,965)** | **(2,284,009)** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | (201,287) | (161,934) |
| Əmlak və avadanlıqların silinməsindən daxilolmalar | 105,000 | 195,000 |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **(96,287)** | **33,066** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | |
| Banklardan alınmış kreditlər üzrə gəlirlər | 49,754,701 | 51,902,490 |
| Banklardan alınmış kreditlərin qaytarılması | (36,898,453) | (46,599,154) |
| Korporativ istiqrazların emissiyası | 1,000,000 | 1,535,000 |
| Korporativ istiqrazların ödənilməsi | (1,500,000) | (4,000,000) |
| İcarə öhdəlikləri üzrə əsas borcun ödənilməsi | (111,822) | (136,960) |
| Ödənilmiş dividendlər | (3,000,000) | - |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | **9,244,426** | **2,701,376** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | 127 | (3,652) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım** | **368,301** | **446,781** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 223,110 | 591,411 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **591,411** | **1,038,192** |

**6.11.2. Emitent bir ildən az müddətdə fəaliyyət göstərdiyi təqdirdə bu dövrü əhatə edən audit edilmiş maliyyə hesabatları**: Emitent 2012-ci ildən fəaliyyət göstərir.

**6.11.3. Maliyyə hesabatları MHBS-ə uyğun hazırlanmadığı təqdirdə, belə maliyyə hesabatları milli uçot standartlarına uyğun olaraq hazırlanmalıdır və ən azı**

**aşağıdakıları özündə əks etdirməlidir:** Maliyyə hesabatları MHBS-ə uyğun olaraq hazırlanmışdır.

**6.11.4. Emitentin konsolidasiya olunmuş maliyyə hesabatı (olduqda):** BOKT "Embafinans" QSC-də Konsolidasiya olunmuş maliyyə hesabatı hazırlanmır.

**6.11.5. Emitent son audit edilmiş maliyyə hesabatlarının tarixindən etibarən rüblük və ya yarımillik maliyyə hesabatlarını dərc etdiyi təqdirdə onlar emissiya prospektinə daxil edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatları audit edildiyi təqdirdə hesabata audit rəyi əlavə edilməlidir. Rüblük və ya yarımillik maliyyə hesabatı audit edilmədikdə bu qeyd edilməlidir:**
Rüblük və ya yarımillik maliyyə hesabatları dərc olunmur və audit edilmir.

**6.11.6. Emissiya prospekti audit olunmuş son maliyyə hesabatından doqquz ay sonra hazırlanarsa bu zaman ən azı yarımillik aralıq audit edilmiş və ya audit edilməmiş maliyyə hesabatı prospektə əlavə edilməlidir. Aralıq maliyyə hesabatı əvvəlki maliyyə ilində eyni dövr üzrə müqayisəli hesabatla birgə tərtib edilməlidir:** Emissiya prospektinə son audit yoxlamasından 1 ay sonra tərtib olunur.

**6.11.7. Emitentin maliyyə vəziyyətinə və gəlirliliyinə təsir edən son bir il ərzində hüquqi proseslər barədə məlumat (həllini gözləyən proseslər də daxil olmaqla):** BOKT "Embafinans" QSC-nin maliyyə vəziyyətinə və gəlirliyinə təsir edın son bir ildə hüquqi proseslər baş verməmişdir.

**6.11.8. Maliyyə hesabatlarının dərc edilməsindən sonra emitentin maliyyə vəziyyətində baş verən dəyişikliklər barədə məlumat:** BOKT "Embafinans" QSC-nin gəlir gətirən aktivləri və xalis mənfəəti 2024-cü ildə 2023-cü il ilə müqayisədə artım dinamikasındadır. BOKT "Embafinans" QSC-nin kredit portfeli 2023-cü ilin sonuna nisbətdə 2024-cü ilin sonunda 20.6% artaraq 51 379 588 AZN-dən 61 997 393 AZN-ə çatmışdır. Bu da təşkilatın dinamik böyüməsinin əlamətidir.

## 6.12. Emitent haqqında əlavə məlumatlar

**6.12.1. Emitentin nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, payların miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərini imtiyazları haqqında məlumat, adi və imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu:** Nizamnamə Kapitalının ümumi məbləği 10 000 000 (on milyon) manat həcmindədir və hər biri 1000 (bir min) manat olmaqla, 10 000 (on min) ədəd adi adlı sənədsiz səhmdən ibarətdir. Cəmiyyətin səhmdarlarının nizamnamə kapitalındakı payları aşağıdakı kimi müəyyən edilmişdir.

| Səhmdarların soyadı, adı, ata adı | Səhmlərin sayı (ədədlə) | Səhmdarların nizamnamə kapitalındakı payı (faizlə) | Nizamnamə Kapitalındakı səhm payı (manatla) |
|---|---|---|---|
| Abbasov Elşad İnşalla oğlu | 8 600 (səkkiz min altı yüz) | 86 % | 8.600.000 (səkkiz milyon altı yüz min) |
| Polyakova Tamara Başirovna | 1 400 (bir min dörd yüz) | 14 % | 1.400.000 (bir milyon dörd yüz min) |

- "Embafinans"ın nizamnamə kapitalı cəmiyyətin kreditorlarının manafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir.

- "Embafinans"ın nizamnamə kapitalının artırılması və ya azaldılması səhmdarların Ümumi Yığıncağının qərarı ilə həyata keçirilir.
- "Embafinans"ın nizamnamə kapitalındakı payların özgənikləşdirilməsi, mühum iştirak payının əldə edilməsi Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə tənzimlənir.

**Səhmlərlə təsbit olunan hüquqlar aşağıdakılardır:**
- "Embafinans"-ın idarə edilməsində qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarını seçmək və seçilmək;
- "Embafinans"-ın fəaliyyətinə dair nəzarət və icra orqanlarından məlumatlar almaq, onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;
- səhmdarların ümumi yığıncağının çağırılmasını tələb etmək;
- səhmdarların ümumi yığıncağının gündəliyində dəyişiliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;
- qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla, səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək;
- "Embafinans"-ın fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;
- "Embafinans"-ın xalis mənfəətindən dividend almaq;
- "Embafinans"-ın direktorunun və Müşahidə Şürasının üzvlərinin səhlənkarlığına və "Embafinans"-a qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;
- "Embafinans"-ın səhmlərinin satışı prosesində iştirak etmək;
- bağlanmış əqd nəticəsində "Embafinans"-a və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;
- bağlanılacaq əqdlərlə (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) və həmin əqdlərin əlavələri ilə tanış olmaq;
- Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

**6.12.2. Emitentin nizamnaməsi barədə aşağıdakı məlumat:** Emitentin Nizamnaməsinin son redaksiyası 26.04.2024-cü il tarixində AR İN yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı İdarəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

**6.12.3. Fəaliyyət və məqsədlərin təsviri: BOKT "EMBAFİNANS" QSC** lisenziyasında qeyd edilmiş fəaliyyət növləri ilə yanaşı, həmçinin Azərbaycan Respublikasının qanunvericiliyi iə qadağan edilməyən müxtəlif fəaliyyət növləri ilə məşğul ola bilər.

**6.12.4. İdarəetmə və nəzarət orqanlarının salahiyyətləri barədə müddəaların icmalı:** Ümumi yığıncağın hüquq vəzifələri, o cümlədən, direktorlar Şurasının hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülki Məcəlləsində və ona müvafiq olaraq hazırlanmış emitentin nizamnaməsində nəzərdə tutulan müəddəalar çərçivəsində həyata keçirilir.

**6.12.5. Emissiya olunan qiymətli kağızlar baxımından qiymətli kağızlar barədə emitentin öhdəliklərini yerinə yetirmək qabiliyyətinə təsir edən emitentin əsas fəaliyyəti ilə bağlı olmayan müqavilələr barədə məlumat:** Mövcud deyil.

# 7. İstiqrazlar barədə məlumat

## 7.1. Əsas məlumat

**7.1.1 Emissiyada iştirak edən şəxslərin maraqları, o cümlədən maraqların toquşması barədə ətraflı məlumat:**

**Bakı Fond Birjası**

Emissiya prosesində iştirak edən Bakı Fond Birjası (BFB) yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir.
BFB 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 21 iyul 2000-ci il tarixli "fond birjası fəaliyyəti" –ni həyata keçirməyə icazə verən 5 saylı müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin peşəkar təşkilatçısı kimi fəaliyyət göstərir. BFB-də Pay bazarı, Borc alətləri bazarı, Repo bazarı, Törəmə maliyyə alətləri bazarı mövcuddur.
BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**Mərkəzi Depozitar**

Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxsdir. MDM Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Emissiya Prossesində MDM-in vəzifələri aşağıdakılardır:

- Bağlanılmış əqdlər üzrə kliring və hesablaşmaların aparılması.
- Depozitar və reyestrsaxlayıcı (istiqrazların saxlanması və istiqraz mülkiyyətçilərinin reyestrinin aparılması)
- Emitentin ödəniş agenti qismində istiqraz üzrə istiqraz mülkiyyətçilərinə (əsas borc və faiz) ödənişlərin həyata keçirilməsi xidmətlərinin göstərilməsi.

**Anderrayter**

"ABB-İnvest İnvestisiya şirkəti" QSC 18.09.2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.
Bu emissiyada iştirak edən üçüncü şəxslər arasında emitentlə aidiyyatı şəxs yoxdur. Mərkəzi Depozitar emissiyanı qeydiyyata aldığı zaman komissiya əldə edir. Fond birjası və anderrayter isə istiqrazlar yerləşdirildikcə emitentdən və invetorlardan komissiya əldə edir və bir başa maddi maraqları vardır.

**7.1.2. İstiqraz təklifinin səbəbləri və istiqrazların yerləşdirilməsindən əldə edilən vəsaitlərin istifadə edilməsi barədə ərtaflı məlumat:** Ölkə iqtisadiyyatının iqtisadi artım prosesinə daxil olması və reytinq agentliklərinin növbəti illər üzrə iqtisadi artım proqnozları emitentin bu prosesdə iştirakını, faydalanmasını və iqtisadiyyata töhvə verməsini şərtləndirir. Kredit məhsullarına tələbin artması fonunda emitent istiqraz buraxmaqla daha sərfəli şərtlərlə vəsait cəlb edib və öz kanalları vasitəsilə əhalinin və bzines subyektlərinin kredit tələblərini təmin etmək və bazara daha rəqabətli şərtlər təqdim etmək bir kredit təşkilatı kimi bazarda öz mövqeyini qoruyub artırmağı nəzərdə tutub.

**7.1.3. Əldə olunan vəsaitlərin nəzərdə tutulan layihələrinin maliyyələşdirmək mümkün olmadığı təqdirdə tələb olunan əlavə pul vəsaitlərinin mənbələri və məbləği:** Hazırda təşkilatın resurs mənbələri xüsusi kapital (24 828 555 AZN), bank öhdəlikləri (38 686 416 AZN) və istiqraz öhdəlikləridir ( 6 500 000 AZN) (30.04.2025 tarixə).

**7.1.4. Əldə olunan vəsaitlərin digər müəssisələrin alışını maliyyələşdirmək, borcları qaytarmaq və ya restruktuzasiya etmək və ya emitentin əsas fəaliyyətinə aidiyyatı olmayan aktivləri əldə etmək üçün istifadə olunması nəzərdə tutulduqda bu barədə ətraflı məlumat:** Əldə olunan vəsait yalnız BOKT "Embafinans" QSC-nin fəaliyyət göstərdiyi seqmentdə kreditləşdirmə məqsədləri üçün istifadə edilir.

## 7.2 . İstiqrazlar barədə məlumat

**7.2.1. Qiymətli kağızların emissiyasını tənzimləyən qanunvericilik:** Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Qanun, ləğv olunmuş Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 27 yanvar 2016-ci il tarixli, 05 nömrəli Qərarı ilə təsdiq edilmiş "Emissiya prospekti və informasiya memorandumuna dair tələblər haqqında" Qaydalar və 27 yanvar 2016-ci il tarixli, 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında" Qaydalar.

**7.2.2. İstiqrazların növü:** Faizli, təmin edilməmiş, sənədsiz, adlı istiqraz;

**7.2.3. Təklif edilən qiymətli kağızların sayı və nominal dəyəri (yeni buraxılan və mövcud olan istiqrazlar barədə məlumat ayrı-ayrılıqda göstərilməklə) :**

| | Yeni buraxılış | Mövcud buraxılış |
|---|---|---|
| Say | 2000 (iki min) ədəd | 2000 (iki min) ədəd |
| Nominal dəyəri | 1 000 (bir min) manat | 1 000 (bir min) manat |
| Say | | 2000 (iki min) ədəd |
| Nominal dəyəri | | 1 000 (bir min) manat |
| Say | | 1 500 (bir min beş yüz) ədəd |
| Nominal dəyəri | | 1 000 (bir min) manat |

**7.2.4. İstiqrazların valyutası:** Azərbaycan manatı (AZN) ;

**7.2.5. İstiqrazların saxlanması və onlara hüquqların uçotunu aparan Mərkəzi Depozitarın olduğu yer:** Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi (MDM) Qiymətli Kağızlar Bazarı haqqında Qanunun 16.1-ci maddəsinə əsasən təsis olunan qeyri-kommersiya hüquqi şəxs olub, Azərbaycan Respublikasının ərazisində depozitar sisteminin işini təşkil edən və əlaqələndirən Mərkəzi Depozitardır.
Hüquqi ünvanı: AZ1000, Bakı şəh., Bül-Bül pr., 27;
Faktiki ünvanı: Bakı ş., Yasamal r-nu, Həsən bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

7.2.6. **Təklif olunan istiqrazların reytinqi (olduqda) və bu reytinqə təsir edən amillər barədə məlumat:** təklif edilən istiqrazlara reytinq əldə edilməsi üçün heç bir reytinq agentliyinə müraciət edilməyib.

7.2.7. **İstiqrazlarla təsbit olunan hüquqlar, onların həyata keçirilməsi qaydası və onlara dair məhdudiyyətlər:**

**İstiqraz mülkiyyətçilərinin aşağıdakı hüquqları vardır:**

a) İstiqrazların tədavül müddətinin sonunda istiqrazın nominal dəyərini Emitentdən almaq;

b) İstiqrazın nominal dəyərindən illik 13 (on üç) faiz olmaqla istiqrazın tədavül müddəti ərzində faiz almaq;

c) Emitentin ləğvi, yaxud emitentin kreditorlarının tələblərinin ödənilməsinin təminatına real təhlükəyə səbəb olan onun yenidən təşkili barədə qərar qəbul edildikdə, habelə Emitent müflis elan olunduqda İstiqrazların nominal dəyərinin və həmin anadək hesablanmış, lakin ödənilməmiş faizlərin vaxtından əvvəl ödənilməsini Emitentdən tələb etmək;

d) Azərbaycan Republikasının qanunvericiliyində nəzərdə tutulmuş digər hüquqlar.

7.2.8. **İstiqrazlar üzrə gəlirliyin faiz dərəcəsi** : illik 13 (on üç) faiz;

7.2.9. **İstiqrazların və faizlərin ödənilməsi tarixi və müddəti:** İstiqrazların ödənilmə müddəti buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən 12 (on iki) ay. İstiqrazlar üzrə ödənilməli olan faizlər buraxılışda olan ilk istiqrazın yerləşdirildiyi tarixdən etibarən dövri olaraq hər 3 (üç) təqvim ayından bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə) ödəniləcəkdir. İstiqraz sahiblərinə istiqrazlar üzrə əsas məbləğin ödənişi tədavül müddətinin sonunda – ilk istiqrazın yerləşdirildiyi tarixdən 12 (on iki) ay sonra həyata keçiriləcək.

7.2.10. **Faiz və əsas borcun ödənilməsi ilə bağlı iddia müddəti:** Əsas borc və faizin ödənilməsi ilə bağlı iddia müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 372-384-cü maddələri ilə tənzimlənir.

7.2.11. **Faiz dərəcəsi müəyyən olunmadığı halda istiqrazın faiz dərəcəsinin hesablanması üsulu:** Faiz dərəcəsi müəyyən olunmuşdur.

7.2.12. **Bazarda baş verən hadisələrin istiqrazların baza aktivinə (olduqda) və istiqrazlar üzrə hesablaşmalara mənfi təsiri barədə məlumat. Belə halların tənzimlənməsi qaydaları və ya prosedurları:** İstiqrazlar üzrə baza aktivi nəzərdə tutulmamışdır.

7.2.13. **Ödənişlər üzrə hesablaşma agentinin adı:** istiqrazların yerləşdirilməsi üzrə "ABB" ASC, istiqrazlar üzrə faizlərin və istiqrazların əsas məbləğinin ödənilməsi üzrə Azərbaycan Respublikasının Milli Depozit Mərkəzi.

7.2.14. **Təmin edilmiş istiqrazlar təklif olunduqda təminatın dəyərinin istiqrazların və onlar üzrə faizlərin ödənişinə təsiri barədə aydın və ətraflı məlumat:** Yeni emissiya edilən istiqrazlar təmin edilməmiş formada emissiya edilir.

7.2.15. **İstiqrazların geri satın alınmasının şərtləri:** Emitent tərəfindən istiqrazların tədavül müddəti ərzində geri satın alınması nəzərdə tutulmur.

7.2.16. **Gəlirlik dərəcəsi və onun hesablanması qaydası.**

İstiqrazlar üzrə faizlər İstiqrazın nominal dəyərindən hesablanır. İstiqrazlar üzrə faiz gəlirinin məbləği aşağıda göstərilən düsturla müəyyən edilir:

$TF = (N*D*G/360)/100$

burada,

TF – Bir istiqraz üzrə toplanmış faizlər;

N – Bir İstiqrazın nominal dəyəri 1 000 (bir min) manat;

D – İstiqrazların illik gəlirlik dərəcəsi 13 (on üç);

G –İstiqrazların ödəniş dövrünün müddəti 3 ayda bir (bir ayda 30 gün olduğunu qəbul etmək şərti ilə)

Beləliklə, hər bir istiqraz üzrə bir faiz dövrü üçün ödəniləcək faizlərin məbləği 32.5 (otuz iki tam onda beş) manat təşkil edir.

**7.2.17. İnvestorları təmsil edən təşkilat barədə (olduqda) məlumat** Mövcud deyil;

**7.2.18. İstqirazların emissiyası haqqında qərarın qəbul edilməsi tarixi, nömrəsi və qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı:** BOKT "EMBAFİNANS" QSC-nin Təsisçilərinin Ümumi Yığıncağının Növbədənkənar İclasının 91 №-li, 12 may 2025-ci il tarixli Protokolu

**7.2.19. İstiqrazların əldə edilməsi üçün məhdudiyyətlər (olduqda):** İstiqrazların əldə edilməsinə heç bir məhdudiyyət qoyulmayıb.

**7.2.20. İstiqrazlar üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə məlumat:** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

**7.2.21. İstiqraz üzrə gəlirlərdən mənbədən verginin tutulması barədə emitentin öhdəliyi:** Milli Depozit Mərkəzi faiz (kupon) ödənişi günündən bir iş gün əvvələ düşən iş gününün sonunda saat 18.00-da istiqraz sahiblərinin reyestrini formalaşdıracaqdır. Növbəti iş günü (ödəniş günü) həmin reyestrdə adları qeyd olunan investorlara sahib olduqları istiqrazların sayına görə müvafiq faiz (kupon) ödənişinin məbləği hesablanacaqdır. Bu faiz ödənişinin məbləğindən ödəmə mənbəyindən tutulan verginin məbləği çıxıldıqdan sonra xalis faiz ödənişinin məbləği investorların bank hesabına köçürüləcəkdir.

## 7.3. Təklifin şərtləri

### 7.3.1. Təklifin və yerləşdirmənin başlanma və başa çatma tarixləri:

- **Yerləşdirmənin başlanma tarixi:** Yeni emissiya ediləcək istiqrazlar Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alındıqdan sonra

yerləşdirmənin başlanmasına ən azı 2 iş günü qalmış hərracın baş tutacağı tarix BFB-nin saytında investorlara açıqlanacaqdır.

- **Yerləşdirmənin başaçatma tarixi:** Hərrac qaydalarına uyğun olaraq BFB və anderrayter tərəfindən elan edilən müvafiq hərracın baş tutduğu gün.

7.3.2. **Təklifin qüvvədə olduğu müddət ərzində prospektdə düzəlişlərin edilə biləcəyi müddət və düzəlişlərin edilməsi qaydası:**
Emissiya prospektində dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün ərizə müvafiq qərarın qəbul edildiyi gündən 5 iş günü ərzində Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim edilir. Emissiya prospektində edilmiş dəyişikliklər dövlət qeydiyyatına alındığı tarixdən beş iş günü ərzində "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 7.1-ci maddəsi ilə müəyyən edilmiş vasitələrlə açıqlanır və açıqlandığı tarixdən on beş iş günü bitdikdən sonra qüvvəyə minir.

7.3.3. **Təklifin dayandırılması və ya təxirə salınması hallarının izahı:** "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununun 9-cu maddəsində nəzərdə tutulmuş hallarda təklif dayandırıla bilər. Bu barədə məlumat Emitent tərəfindən vahid məlumat resursunda ("Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanununda nəzərdə tutulmuş məlumatların dərc edildiyi, ictimaiyyət üçün açıq olan və bu qanunla müəyyən edilmiş orqan (qurum) tərəfindən yaradılan avtomatlaşdırılmış sistem) fond birjasının və Emitentin internet səhifəsində açıqlanır.

7.3.4. **İstiqrazlara abunə yazılışı keçirildikdə aşağıdakı məlumat:** İstiqrazların yerləşdirilməsi prosesində abunə yazılışı nəzərdə tutulmamışdır.

7.3.5. **İstiqrazlar hərrac vasitəsilə yerləşdirildikdə, hərracın keçirilməsi qaydası və şərtləri:**
İstiqrazlar birqiymətli hərrac üsulu ilə BFB-nin ticarət platformasında birja üzvü tərəfindən sifarişlərin birjanın sisteminə daxil edilməsi yolu ilə alqı-satqı əqdləri bağlanılmaqla ilkin yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsinə onların fond birjasında ticarətə buraxılmasından sonra başlanılır. Hərrac günü anderrayter və digər birja üzvləri sifarişlərin qəbul edilməsi üçün elan olunmuş müddət ərzində istiqrazların alınması üçün sifarişləri BFB-yə təqdim edir. İnvestorlar tərəfindən təqdim edilmiş sifarişlərin cəmi emissiyanın ümumi həcmindən çox olarsa, sifarişlər proporsional qaydada icra olunacaqdır. Hərrac günündən gec olmayaraq, istiqrazların alınması üçün pul vəsaitləri investorlar tərəfindən anderrayterin hesablaşma agenti kimi çıxış edən "ABB" ASC-də açılmış emitentin müvəqqəti cari hesabına köçürülməlidir. Hərracın keçirilməsi tarixi Emitent tərəfindən müəyyən edilir və hərracın keçirilməsinə ən azı 2 iş günü qalmış BFB-nin internet saytında (www.bfb.az) və Emitentin internet saytında (www.embafinans.az) açıqlanır.

7.3.6. **İstiqrazların dəyərinin ödənilməsi və investorların istiqrazlarla təchizatı şərtləri və qaydası:**
İstiqrazların dəyərinin ödənilməsi qaydası "Qiymətli kağılar bazarı haqqında Azərbaycan Respublikasının Qanunu" və "İnvestisiya qiymətli kağızlarına abunə yazılışı və yerləşdirilməsi haqqında Qaydalar" ilə tənzimlənir. Yerləşdirmə müddəti ərzində investorlar qiymətli kağızların dəyərini bu emissiya prospektində müəyyən edilmiş bankda açılmış müvəqqəti cari hesabına köçürməlidirlər. İnvestorlar tərəfindən ödənilmiş pul vəsaitləri qeyd edilən müvəqqəti cari hesabda saxlanılır və kütləvi yerləşdirilən istiqrazlar üzrə həmin vəsaitlərin istifadəsinə "Qiymətli kağızlar bazarı haqqında" Qanunun 8.1-ci maddəsinə uyğun olaraq yerləşdirmə başa çatdıqdan dərhal sonra yol verilir. Mərkəzi depozitar investisiya qiymətli kağızlarının dəyərinin investorlar tərəfindən ödənilməsi

haqqında məlumatları aldıqdan sonra qiymətli kağızları investorların depo hesablarına köçürülməsi əməliyyatını həyata keçirir.

7.3.7. **Potensial investorların müxtəlif kateqoriyaları barədə məlumat:** potensial investorlar hüquqi şəxslər, banklar, sığorta təşkilatları, investisiya şirkətləri, rezident və qeyri rezident fiziki şəxslər ola bilər. Xarici hüquqi şəxslərin də istiqrazları alması mümkündür. Potensial investorların istiqrazlar barədə məlumatlandırılması üçün internet resurslarından və anderrayter vasitəsilə fərdi görüşlərin keçirilməsi nəzərdə tutulub. Anderrayter və emitent müraciət edən istənilən potensial investora müfəssəl məlumat verəcəkdir.

7.3.8. **İstiqrazların satışının başlanması barədə investorlara bildirişlərin göndərilməsi qaydası və satışın xəbərdarlıq edilməzdən öncə başlaya bilib-bilməməsi barədə məlumat:** İstiqrazların yerləşdirilməsinə başlanılması tarixinə ən azı 2 iş günü qalmış emitent və ya anderrayter qiymətli kağızların yerləşdirilməsinin başlanması tarixini və hərracın keçirilməsi şərtlərini elan edəcək və fond birjasına bu barədə yazılı bildiriş göndərəcəkdir.

7.3.9. **İstiqrazların təklif qiyməti. Qiymətin məlum olmadığı təqdirdə istiqrazların qiymətinin müəyyənləşdirilməsi metodunu göstərməklə bu prosesdə iştirak edən və məsuliyyət daşıyan şəxslər barəsində məlumat:** İstiqrazlar minimal 1 000 (bir min) manat qiymətilə təklif olunur.

7.3.10. **İstiqraz alıcısının ödəməli olduğu vergi və xərclərin məbləği:**

7.3.10.1. **Vergilər.** Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (bundan sonra – AR Vergi Məcəlləsi) 123.1-ci maddəsinə 44 əsasən rezident fiziki şəxsə, qeyri-rezident fiziki şəxsin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinə (maliyyə lizinqini həyata keçirən fiziki şəxslər istisna olmaqla) və Azərbaycan Respublikasında daimi nümayəndəliyi olmayan qeyri-rezidentə rezident tərəfindən və ya qeyri-rezidentin daimi nümayəndəliyi tərəfindən, yaxud bu cür nümayəndəliyin adından ödənilən faizlərdən, o cümlədən maliyyə lizinqi əməliyyatları üzrə ödənilən ssuda faizlərindən, gəlir AR Vergi Məcəlləsinin 13.2.16-cı maddəsinə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, AR Vergi Məcəlləsinin 102.1.22-ci və 102.1.22-2-ci maddələrində nəzərdə tutulmuş güzəşt nəzərə alınmaqla ödəniş mənbəyində 10 faiz dərəcə ilə vergi tutulur. AR Vergi Məcəlləsinin 102.1.22-2-ci maddəsinə əsasən fiziki şəxslərin 2023-cü il fevralın 1-dən etibarən 5 (beş) il müddətində Azərbaycan Respublikasının ərazisində, habelə ölkə hüdudlarından kənarda rezident hüquqi şəxslər tərəfindən kütləvi təklif edilmiş və tənzimlənən bazarda ticarətə buraxılmış səhmlər və istiqrazlar üzrə ödənilən dividend, diskont (istiqrazların nominalından aşağı yerləşdirilməsi nəticəsində yaranmış fərq) və faiz gəlirləri gəlir vergisindən azad olunmuşdur. İstiqraz üzrə gəlirlərdən mənbədə digər vergilərin tutulması AR Vergi Məcəlləsinə uyğun tənzimlənir. İstiqrazların dövriyyədə olduğu müddətdə vergi qanunvericiliyi aidiyyəti vergilərlə bağlı dəyişiklər olarsa, ona uyğun vergilər tətbiq ediləcək.

7.3.10.2. **Xərclər:** İlkin bazarda istiqrazların alışı zamanı həyata keçən əqdlərdən aşağıdakı investor xərcləri yarana bilər:

- Bakı Fond Birjası - əqdin həcmindən 0.02%
- Milli Depozit Mərkəzi – depo hesabının açılışı 5 (beş) AZN, investisiya şirkəti tərəfindən depo hesabı açılışı ilə bağlı əlavə rüsum tətbiq edilə bilər;
- Bank köçürmə xərcləri – bankdan aslı olaraq dəyişir;
- İnvestisiya şirkətləri – investisiya şirkəti ilə investor arasında bağlanmış müqavilə əsasında.

**7.3.10.3. İstiqrazları öhdəlik götürməklə və ya öhdəlik götürmədən yerləşdirən anderrayter barədə məlumat (adı, lisenziyası və ünvanı). Xidmət haqqı.**

İstiqrazlar "ABB-İnvest İnvestisiya Şirkəti" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən öhdəlik götürmədən yerləşdiriləcəkdir. İstiqrazların yerləşdirilməsi nəticəsində, "ABB-İnvest İnvestisiya Şirkəti" QSC-yə ümumi yərləşdirilmiş həcmin 0.5 (sıfır tam onda beş) %-i qədər komissiya haqqı təyin ediləcəkdir.

"ABB-İnvest İnvestisiya Şirkəti" QSC 18.09.2020-ci il tarixində Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş İŞ-05 №-li müddətsiz lisenziya əsasında qiymətli kağızlar bazarında əsas və yardımçı investisiya xidmətlərini göstərən peşəkar investisiya şirkətidir.

Hüquqi ünvanı: Bakı şəhəri, Nəsimi rayonu, Nizami küç, ev.67
Faktiki ünvanı: Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 609 (Globus Center 8-ci mərtəbə)
VÖEN-i: 1405161661
Telefon: +99412 4930091 (3092,3093)
Elektron poçt ünvanı: office@abbinvest.az

**7.3.11. Anderraytinq müqaviləsinin bağlandığı və ya bağlanacağı vaxtı:** BOKT "EMBAFİNANS" QSC və "ABB-İnvest İnvestisiya Şirkəti" QSC arasında anderrayter müqaviləsi qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra bağlanacaqdır.

## 7.4. Ticarətə buraxılma və onun tənzimlənməsi

**7.4.1. İstiqrazların tənzimlənən bazarda ticarətə buraxılması barədə emitent tərəfindən müraciətin edilməsinin nəzərdə tutulub tutulmaması barədə məlumat. Belə bir müraciətin edilməsi nəzərdə tutulduğu halda istiqrazların ticarətə buraxılacağı tənzimlənən bazar haqqında məlumat və ticarətə buraxılma şərtləri:** İstiqrazların kütləvi təklif üsulu ilə yerləşdirilməsi "Bakı Fond Birjası" QSC-nin ticarət platforması vasitəsilə həyata keçiriləcəkdir. İstiqrazların Bakı Fond Birjasında ticarətə qəbul edilməsi və listinqə daxil edilməsi ilə bağlı müraciət istiqrazın buraxılışı dövlət qeydiyyatına alındıqdan sonra ediləcəkdir.

Bakı Fond Birjası yeni emissiya edilmiş istiqrazların listinqə daxil edilməsi, hərrac vasitəsilə istiqrazların ilkin yerləşdirilməsi, həmçinin təkrar bazarda alqı-satqısı üçün peşəkar kütləvi ticarəti təşkil edir. Bakı Fond Birjası 2000-ci ildə qapalı səhmdar cəmiyyəti formasında təsis edilmiş və 2000- ci ilin 21 iyul tarixində Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi tərəfindən verilmiş "fond birjası fəaliyyəti"-ni həyata keçirməyə icazə verən 5 nömrəli müddətsiz lisenziya əsasında Azərbaycan Respublikası ərazisində qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə kütləvi ticarətin təşkilatçısı kimi fəaliyyət göstərir. BFB aşağıdakı bazarların ticarətini təşkil edir:

• dövlət qiymətli kağızları bazarı;
• korporativ qiymətli kağızlar bazarı;
• törəmə maliyyə alətləri bazarının Ticarətə buraxılmanın şərtləri "Bakı Fond Birjasında" qiymətli kağızların listinqə daxil olması, listinqdə saxlanılması, delistinqi və ticarətinin təşkili" və "Bakı Fond Birjasında qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə ticarətin təşkili və keçirilməsi" Qaydaları əsasında tənzimlənir.

Yerləşdiyi ünvan: AZ1141 Bakı şəhəri, Yasamal rayonu, Həsən Bəy Zərdabi küçəsi 2A (Şokolad Tower)

Elektron poçt ünvanı: info@bse.az

İnternet şəbəkəsində rəsmi səhifəsi: www.bse.az

Tel: (+99412) 539 72 49

BFB-nin fəaliyyəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikasının digər hüquqi aktları və BFB-nin nizamnaməsi və daxili Qaydaları ilə tənzimlənir.

**7.4.2. Market meyker(lər) barədə məlumat:** Emitent tərəfindən gələcəkdə istiqrazların təkrar bazarda tədavülü üçün prosesə market meyker(lər) cəlb edilə bilər.

## 7.5. Kredit reytinqləri

**7.5.1. Reytinq prosesində emitentin sorğusu və ya emitentlə əməkdaşlıq nəticəsində emitent və ya onun borc qiymətli kağızları üçün təyin olunmuş kredit reytinqləri:**

Mövcud deyil.